ŞƏFFAFLIQ
AZƏRBAYCAN

**Əlaqə:**
Kənan Qasımov, İctimaiyyətlə
Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

***MƏTBUAT ÜÇÜN MƏLUMAT***

Son günlər ölkə mətbuatında "Transparency İnternational" təşkilatı adından belə bir informasiya yayılıb ki, təşkilat dünyada rüşvətin daha çox hansı ölkələrdə olması ilə bağlı araşdırmalar aparıb və bu araşdırmaların nəticəsində hazırladığı hesabatda bildirib ki, dünyada ən çox korrupsiyaya məruz qalan ölkələr sırasında Azərbaycan ikincidir.

"Transparency İnternational" təşkilatının Azərbaycan bölməsi - "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi olaraq bildiririk ki, "Transparency İntenational" təşkilatı ötən ilin oktyabr ayında 2008-ci il üçün ölkələrin Korrupsiya Qavrama İndeksini (KQİ 2008), 2009-cu ilin iyun ayında isə Qlobal Korrupsiya Barometrini açıqlayıb və bu məlumatlar mətbuatda da öz əksini tapıb. Xatırladaq ki, KQİ-2008 də Azərbaycan 180 ölkə arasında 158-ci sırada yer almışdı.

Məlumatı yayan "poliqon" informasiya agentliyi Türkiyə mətbuatına istinad etdiyini bildirir, amma onun istinad etdiyi məqalədə "Transparency İnternational" təşkiatının adı ümumiyyətlə çəkilmir və Azərbaycan ikinci yox, sadəcə olaraq korrupsiyaya ən çox məruz qalan ölkələrdən biri kimi göstərilir.

Bir daha bildirmək istəyirik ki, yuxarıda sadalanan hesabatlar Transparency İnternational təşkilatının ən son hesabatlarıdır və Azərbaycanın dünyada ən çox korrupsiyaya məruz qalan ikinci ölkə kimi göstərildiyi "hesabat"la heç bir bağlılığı yoxdur.